*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 16 noyabr 2019-cu il № 89 (2406) Qiyməti 30 qəpik


# Bakıda Dünya dini liderlərinin II Sammiti keçirilir

## Azərbaycan Prezidenti İlham Əliyev Sammitin açılış mərasimində iştirak edib

*Noyabrın 14-də Bakıda Dünya dini liderlərinin II Sammiti işə başlayıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Sammitin açılış mərasimində iştirak ediblər. Əvvəlcə birgə foto çəkdirildi. Sammit müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başladı.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sammitdə nitq söylədi.*




- Hörmətli Şeyxülislam Allahşükür Paşazadə həzrətləri.

Zati-müqəddəsləri Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill.

Hörmətli din xadimləri, qonaqlar, xanımlar və cənablar.

Mən bütün qonaqları səmimiyyətlə salamlayıram. Dünya dini liderlərinin ikinci Zirvə görüşündə iştirak edən bütün qonaqlara "Xoş gəlmisiniz!" deyirəm.

Bu beynəlxalq tədbirin çox böyük əhəmiyyəti var. Biz fəxr edirik ki, Azərbaycan bu mötəbər tədbirə ikinci dəfə ev sahibliyi edir. Bu, bir daha onu göstərir ki, Azərbaycan dinlərarası dialoqun inkişafında öz önəmli rolunu oynayır və bundan sonra da oynayacaqdır.

Bakıda belə mötəbər tədbirin keçirilməsi, hesab edirəm ki, təbiidir. Çünki Azərbaycanın qədim dinlərarası ənənələri vardır. Azərbaycan ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə bu istiqamətdə nümunəvi ölkə kimi özünü göstərmişdir. Əsrlərboyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir və bu, bizim böyük sərvətimizdir. Dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir. Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır. Bizim qədim tariximizi əks etdirən, o cümlədən bizim dini abidələrimizdir. Bizim dini abidələrimiz, ilk növbədə, onu göstərir ki, Azərbaycan qədim diyardır. Digər tərəfdən onu göstərir ki, müxtəlif dövrlərdə müxtəlif dinlərin nümayəndələri Azərbaycanda yaşamış, yaratmış və gözəl tarixi miras qoymuşlar. Qeyd etməliyəm və biz fəxr edirik ki, İslam aləminin ən qədim məscidlərindən biri Azərbaycanda yerləşir. Şamaxı Cümə məscidi 743-cü ildə inşa edilmişdir, bir neçə il bundan əvvəl əsaslı təmir olunmuşdur. Bu məscid Dərbənd məscidindən sonra Qafqazın ən qədim məscididir.

Eyni zamanda, qədim dövlət olan Qafqaz Albaniyasının kilsəsi Azərbaycanın digər tarixi şəhəri - Şəkinin yaxınlığında yerləşir və bu kilsənin qədim tarixi var. Bu, Qafqazın ən qədim kilsələrindən biridir. Bakıda atəşpərəstlik məbədi - Atəşgah yerləşir. Bu da onu göstərir ki, zərdüştlük dininin Azərbaycanda qədim kökləri vardır. Sonrakı dövrlərdə rus pravoslav kilsələri, sinaqoqlar, katolik kilsəsi inşa edilmişdir. Onu da bildirməliyəm ki, Azərbaycan dövləti tarixi-dini abidələrimizin qorunması və yeni dini məbədlərin inşası istiqamətində səylərini əsirgəmir. Azərbaycan dövlətinin maliyyə dəstəyi ilə bütün dinlərin məbədləri əsaslı şəkildə təmir edilmiş və ya yenidən tikilmişdir. Beləliklə, dinlərarası dialoqun Azərbaycanda qədim tarixi vardır və müasir Azərbaycan dövləti bu ənənələrə sadiqdir. Biz İslam dininə sadiqik. Öz dinimizi təbliğ edirik, eyni zamanda, Azərbaycanda bütün dinlərin nümayəndələri sərbəst yaşayır, fəaliyyət göstərir, öz dini ayinlərini icra edirlər. Beləliklə, ölkəmizdə çox gözəl ictimai abhava vardır.

Beynəlxalq təşkilatlar, eyni zamanda, dünya dini liderləri Azərbaycanın bu istiqamətdəki fəaliyyətini yüksək qiymətləndirirlər. Azərbaycana bir neçə dəfə səfər etmiş Zati-müqəddəsləri Moskva və Bütün Rusiyanın Patriarxı Kirill, Azərbaycana səfər etmiş Roma Papası Fransisk, İslam Əməkdaşlıq Təşkilatına rəhbərlik etmiş şəxslər Azərbaycanda dinlərarası dialoqun yüksək səviyyədə təşkil edilməsi haqqında dəfələrlə öz sözlərini demişlər. Bu sözlər, bu yüksək qiymət bizim üçün çox dəyərlidir və bu, reallığı əks etdirir.

Azərbaycan o ölkədir ki, öz inkişafını, öz gələcəyini milli köklər üzərində qurubdur. Ənənəvi dəyərlər bizim üçün ən böyük sərvətdir. Biz çox şadıq ki, Azərbaycanda yetişən gənc nəsil milli ruhda, vətənpərvərlik ruhunda və eyni zamanda, ənənəvi dəyərlər ruhunda tərbiyə alır. Hesab edirəm ki, Bakıda keçirilən Zirvə görüşünün mövzularından biri də məhz bu olacaq. Çünki biz görürük ki, dünyada, dünyanın müxtəlif yerlərində ənənəvi dəyərlərə qarşı kampaniya aparılır, onlar gözdən salınır, bizim üçün yad olan, bizim milli təfəkkürümüzə uyğun olmayan yeni "dəyərlər" aşılanır. Biz özümüzü və xüsusilə gənc nəslimizi bu yad və bəd təsirdən qorumalıyıq. Ona görə hesab edirəm ki, ənənəvi dəyərlərin, ailə dəyərlərinin təbliğ edilməsi hamımızın işi olmalıdır. Yenə də deyirəm, Azərbaycanda bu istiqamətdə aparılan siyasət - həm dövlət, həm dini liderlər tərəfindən aparılan siyasət, hesab edirəm ki, çox böyük qiymətə layiqdir.

Azərbaycan multikulturalizm dəyərlərini təbliğ edən ölkələrdən biridir. Multikulturalizm Azərbaycanda həm həyat tərzidir, həm də dövlət siyasətidir. Təsadüfi deyil ki, Azərbaycanda bu istiqamətdə bir çox önəmli addımlar atılmışdır və bir neçə mötəbər beynəlxalq tədbir keçirilmişdir. Tədbirlərin bəziləri ənənəvi xarakter daşıyır. Məsələn, Bakı Humanitar Forumu ənənəvi olaraq keçirilir. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu BMT tərəfindən dəstəklənir. BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu, Dünya dini liderlərinin Zirvə görüşləri, yəni, bütün bu tədbirlərin bir məqsədi var - dinlərarası dialoqu möhkəmləndirmək, dini ayrı-seçkiliyə qarşı birgə mübarizə aparmaq, multikultural dəyərləri təbliğ etmək və beləliklə, dünyada gedən müsbət proseslərə öz töhfəmizi verməkdir. Çünki biz yaxşı görürük və mətbuatdan da izləyirik ki, dini zəmində, etnik zəmində, məzhəb zəminində bir çox xoşagəlməz hallar - münaqişələr, qarşıdurmalar, müharibələr, qardaş qanının axıdılması baş verir. Əfsuslar olsun ki, bəzi hallarda psevdodini şüarlar altında cinayətlər törədilir. Biz bu istiqamətdə öz səylərimizi birləşdirməliyik.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# Bakıda Dünya dini liderlərinin II Sammiti keçirilir

## Azərbaycan Prezidenti İlham Əliyev Sammitin açılış mərasimində iştirak edib

**(Əvvəli 1-ci səhifədə)**




Azərbaycanda dövlət-din münasibətləri yüksək səviyyədə tənzimlənir. Dövlət-din münasibətlərinin əsasını ulu öndər Heydər Əliyev qoymuşdur. Heydər Əliyev Azərbaycan xalqının böyük oğludur və bütün dövrlərdə - həm sovet dövründə, həm müstəqillik dövründə xalqa ləyaqətlə xidmət etmişdir. Dövlət-din münasibətlərinin təməlini məhz Heydər Əliyev qoymuşdur, necə ki, müasir Azərbaycanın bütün başqa istiqamətlər üzrə inkişaf konsepsiyası onun adı ilə bağlıdır. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyinə nail olmuşdur. Ancaq ilk iki ildə müstəqillik formal xarakter daşıyırdı. Demək olar ki, ölkə idarəolunmaz vəziyyətdə idi. Xüsusilə 1992-ci ildə Azərbaycan Xalq Cəbhəsi tərəfindən həyata keçirilmiş hərbi çevriliş nəticəsində vəziyyət daha da ağırlaşdı, Azərbaycan dərin böhrana düçar oldu, ölkəni xaos, anarxiya, özbaşınalıq bürüdü. Eyni zamanda, dinlərarası, millətlərarası münasibətlərə böyük ziyan vuruldu. Azərbaycan Xalq Cəbhəsinin hakimiyyəti tariximizin qara ləkəsidir. Bu, rüsvayçılıq dövrüdür və təsadüfi deyil ki, Azərbaycan xalqı bu antimilli, satqın və qorxaq hakimiyyətə cəmi bir il dözə bildi, bir ildən sonra öz liderinə üz tutub Heydər Əliyevi hakimiyyətə dəvət etdi və ona ölkənin gələcəyini etibar etdi.

Heydər Əliyev hakimiyyətə gələndən sonra, ilk növbədə, qanunsuz silahlı birləşmələrin tərk-silah edilməsi istiqamətində önəmli addımlar atdı, erməni işğalının qarşısını aldı və Azərbaycan işğal altında olmuş bəzi torpaqları geri qaytara bildi. Ölkədə sabitlik bərqərar oldu, inkişaf yoluna qədəm qoyuldu. Biz beynəlxalq təcriddən çıxa bildik, iqtisadi və siyasi islahatlar aparılmağa başlandı. O cümlədən dövlət-din münasibətlərinin formalaşması Heydər Əliyevin adı ilə bağlıdır. Eyni zamanda, şeyx həzrətləri bu istiqamətdə çox böyük fədakarlıq və fəaliyyət göstərmişdir. Mən bu işlərin şahidi kimi deyə bilərəm ki, Heydər Əliyevin və şeyx həzrətlərinin dostluğu dövlət-din münasibətlərinin formalaşmasında həlledici rol oynamışdır. Şeyx həzrətləri bu gün də dövlət-din münasibətlərinin sağlam zəmində davam etdirilməsi istiqamətində böyük işlər görür, Azərbaycanı dünyada təbliğ edir. Onun rəhbərliyi ilə aparılan işlər həm Azərbaycan xalqı tərəfindən, həm də dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Hər il bir neçə ölkədə şeyx həzrətlərinin təşəbbüsü və rəhbərliyi ilə mötəbər beynəlxalq tədbirlər keçirilir. Həm Azərbaycanda, həm Qafqazda, həm də dünyada böyük nüfuz qazanmış şeyx həzrətləri din-dövlət münasibətlərinin necə tənzimlənməsi istiqamətində atılan addımları ölçüb-biçir və bu addımlar ölkəmizin ümumi inkişafını dəstəkləyir. Çünki hər bir ölkənin sabitliyi hər bir ölkənin gələcəyi deməkdir. Sabitlik pozulan yerlərdə inkişafa da yer qalmır. Əfsuslar olsun ki, son illər ərzində dini zəmində müxtəlif ölkələrdə iğtişaşlar, müharibələr, münaqişələr baş alıb gedir. Əfsuslar olsun ki, bir çox hallarda dini şüarlar altında böyük cinayətlər törədilir.

Şeyx həzrətləri Azərbaycanın ümumi inkişafına çox böyük töhfə vermiş böyük şəxslərdən biridir. Bu ilin avqust ayında mənim Sərəncamımla Azərbaycanın ən ali ordeni olan "Heydər Əliyev" ordeni şeyx həzrətlərinə verilmişdir və bu gün təntənəli şəkildə bu yüksək mükafat şeyx həzrətlərinə təqdim ediləcəkdir.

Dinlərarası münasibətlərə gəldikdə, hesab edirəm ki, bu münasibətlərin spektri kifayət qədər genişdir. Biz Azərbaycanda ümumi konsepsiyaya baxdıqda görürük ki, bir neçə istiqamət var, bu, sadəcə olaraq, dini liderlərin bir-biri ilə əlaqədə olması demək deyil. Bu, müxtəlif tədbirlərin keçirilməsidir və önəmli mesajların verilməsidir. Mən bu tədbirlərin arasında Azərbaycanda bir neçə il bundan əvvəl keçirilmiş I Avropa və IV İslam Həmrəyliyi oyunlarını da qeyd etmək istəyirəm. Baxmayaraq ki, bu, idman yarışlarıdır, ancaq bu yarışların çox böyük siyasi mənası vardır. Çünki təsəvvür edin, cəmi iki il ərzində bir ölkədə, bir şəhərdə İslam ölkələrinin və Avropa ölkələrinin idmançıları yarışır və eyni zamanda, dostluq əlaqələri yaradırlar. Çünki bu oyunlar, sadəcə olaraq, idman yarışı deyil. Bu oyunlar Azərbaycanda bir dostluq festivalına, dostluq bayramına çevrilmişdir. Hər iki idman yarışında 100-dən çox ölkə təmsil olunurdu, minlərlə idmançı, məşqçi, qonaq iştirak edirdi və əlbəttə ki, bu oyunların dinlərarası, mədəniyyətlərarası dialoqun təşviqində böyük rolu vardır.

Keçən il biz "Bakı Prosesi"nin 10 illiyini qeyd etmişik. "Bakı Prosesi" bizim təşəbbüsümüzlə başlanmış prosesdir və bu gün bu, geniş beynəlxalq dəstəyə malikdir. O cümlədən BMT "Bakı Prosesi"ni dinlərarası, mədəniyyətlərarası dialoqun önəmli platforması kimi qəbul edir. 2008-ci ildə Bakıda Avropa Şurasının Mədəniyyət nazirlərinin toplantısı keçirilmişdir və biz qərara gəldik ki, bu toplantıya İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin Mədəniyyət nazirlərini dəvət edək və beləliklə, birinci təmas yarandı. Ondan sonra 2009-cu ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Mədəniyyət nazirlərinin toplantısına biz Avropadan nazirləri dəvət etdik. Azərbaycan nadir ölkələrdəndir ki, həm İslam Əməkdaşlıq Təşkilatına, həm də Avropa Şurasına üzvdür və biz bu imkandan istifadə edib "Bakı Prosesi"nə start verdik. Bayaq qeyd etdiyim kimi, bu gün beynəlxalq aləmdə "Bakı Prosesi" çox yüksək qiymətləndirilir və bu, doğrudan da nadir əməkdaşlıq formatıdır.

Dinlərarası dialoqdan danışarkən, əlbəttə ki, biz təkcə müsbət məqamların qeyd edilməsi ilə kifayətlənməməliyik. Eyni zamanda, münaqişələri din amilinə bağlamaq cəhdlərini də çox ciddi şəkildə pisləməliyik. Bu nümunələrdən biri uzun illər davam edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Bildirməliyəm ki, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır, tarixi Azərbaycan torpağıdır. Azərbaycan xalqı əsrlərboyu bu torpaqda yaşayıb yaratmışdır və qədim xəritələrdə, eyni zamanda, Çar Rusiyasının XX əsrin əvvəllərində çap edilmiş xəritələrində Dağlıq Qarabağa aid olan ərazidə bütün toponimlər Azərbaycan mənşəlidir. Qarabağ xanlığı Azərbaycan xanlığı olmuşdur. Sadəcə olaraq, XIX əsrin əvvəllərində ermənilər Dağlıq Qarabağa köçürülmüşlər və XX əsrdə orada milli tərkib böyük dərəcədə deformasiyaya uğramışdır. Onu da bildirməliyəm ki, bolşevik inqilabından sonra respublikalar arasında cızılan xəritələrə gəldikdə, o vaxt bolşevik hökuməti tərəfindən qərar qəbul edilmişdir ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın. Bu, çox önəmli məqamdır, çünki tarixi təhrif etməkdə usta dərəcəsinə çatmış erməni tarixçiləri qeyd edirlər ki, Dağlıq Qarabağın Azərbaycana verilməsi haqqında qərar qəbul edilmişdir. Halbuki bu, belə deyil və tarixi sənədlər bunu göstərir, Dağlıq Qarabağı Azərbaycanın tərkibində saxlamaq haqqında qərar qəbul edilmişdir. Yəni, bu, eyni zamanda, tarixi və siyasi məqamları əks etdirir.

Ancaq Sovet İttifaqının dağılması ərəfəsində Dağlıq Qarabağda və Ermənistanda baş qaldırmış millətçi qüvvələr Azərbaycana qarşı təcavüzə başlamışdır və hərbi təcavüz nəticəsində torpaqlarımızın təxminən 20 faizi, o cümlədən Dağlıq Qarabağ və ətrafda olan 7 rayon işğal altına düşmüşdür. Bu ərazilərdə Azərbaycan xalqına qarşı soyqırımı törədilmişdir, bizim bütün tarixi abidələrimiz, qəbirlərimiz, o cümlədən məscidlərimiz ermənilər tərəfindən dağıdılmışdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib və bu qətnamələrdə erməni silahlı qüvvələrinin bizim torpaqlarımızdan çıxarılması haqqında açıq-aydın müddəalar var, Ermənistan bu qətnamələrə məhəl qoymur. Digər beynəlxalq təşkilatlar - Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası və başqa təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Münaqişənin həlli üçün yeganə yol Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır.

Bu böyük humanitar fəlakət nəticəsində Dağlıq Qarabağdan, Ermənistandan və Qarabağı əhatə edən rayonlardan bir milyon azərbaycanlı qaçqın-köçkün vəziyyətinə düşmüşdür. O vaxt Azərbaycanın əhalisi 8 milyon idi. Yəni, təsəvvür edin nə qədər böyük humanitar fəlakət idi. Buna baxmayaraq, Azərbaycan uğurla inkişaf edir, ölkəmiz beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır. Keçən ay Bakıda Qoşulmama Hərəkatının Zirvə Görüşünün Yekun Bəyannaməsi də ədaləti əks etdirir və bildirməliyəm ki, Azərbaycan bu böyük təşkilata sədrliyi öz üzərinə götürmüşdür. Azərbaycan 120 ölkənin yekdil qərarı ilə bundan sonra üç il ərzində Qoşulmama Hərəkatına sədrlik edəcək.

Bizim iqtisadi göstəricilərimiz çox müsbətdir. 2003-cü ildən bu günə qədər ölkə iqtisadiyyatı 3,2 dəfə artmışdır, savadlılıq 100 faizə yaxındır, yoxsulluq son 16 il ərzində təxminən 50 faizdən 5 faizə düşmüşdür. Azərbaycan texnoloji inkişafa böyük önəm verir və bu gün dünyanın məhdud sayda olan kosmik klubunun üzvüdür, üç peykimiz var. Önəmli nəqliyyat layihələri icra edilir. Bu layihələr, sadəcə olaraq, nəqliyyat layihələri deyil, bu, əməkdaşlıq layihələridir. Çünki nəqliyyat elə bir sahədir ki, qonşu ölkələr və digər bölgə ölkələri bir-birindən asılı olurlar. Azərbaycan açıq dənizlərə çıxışı olmayan bir ölkə kimi artıq beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrilmişdir - Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycanın ərazisindən keçir.

Bütün bu nailiyyətlər deməyə əsas verir ki, inkişafımız bundan sonra da uğurlu olacaq, gələcəyimiz parlaq olacaq və uğurlu gələcəyimizin əsas şərti daxili sabitlikdir. Sabitliyin də təminatçısı Azərbaycan xalqıdır, onun rəyidir, onun bizə verdiyi dəstəkdir. Xalq-iqtidar birliyi Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir və eyni zamanda, dinlərarası münasibətlər də bizim gücümüzü artırır.

Mən əminəm ki, bu Zirvə görüşünün çox böyük əhəmiyyəti olacaq və Bakıdan səslənən mesajlar lazımi ünvana çatacaq. Hesab edirəm ki, əsas istiqamətlərdən biri dini ayrı-seçkiliyə yol verməmək, ksenofobiya, islamofobiya, antisemitizmə qarşı birgə mübarizə aparmaq, dindən siyasi məqsədlər üçün istifadə etməmək, münaqişələrə dini don geyindirməmək, münaqişə zamanı tarixi-dini abidələri dağıtmamaq və ənənəvi dəyərləri təbliğ etməkdir. Hesab edirəm ki, dediyim bu məsələlər Azərbaycanın bu istiqamətdəki siyasətini əks etdirir. Əminəm ki, Zirvə görüşünün nəticələri bu istiqamətdə atılmış növbəti addım olacaqdır.

Mən bir daha qonaqları səmimiyyətlə salamlayıram və Zirvə görüşünə uğurlar arzulayıram. Sağ olun.

# Müxtəlif qoşun növlərinin cəlb olunduğu əməliyyat təlimi davam edir





Azərbaycan Ordusu miqyasında keçirilən əməliyyat təlimi çərçivəsində Hərbi Hava Qüvvələri (HHQ) qarşıya qoyulan tapşırıqları icra edir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, plana uyğun olaraq HHQ-nin idarəetmə qrupuna müdaxilələr əsasında daxil olan məlumatlar xəritə üzərinə işlənilir.

Təlimə cəlb olunan aviasiya və hava hücumundan müdafiə vasitələri tapşırıqları dəqiq və effektiv icra edirlər.

* * *

Əməliyyat təlimində qoşunlar və idarəetmə məntəqələrinin əməliyyat təyinatı rayonlarına yerdəyişməsi, cəbhə və ordu aviasiyasının ehtiyat aerodromlarına köçürülməsi, eləcə də raket və artilleriya qoşunlarının ehtiyat atəş və start mövqelərinə çıxarılması üzrə tapşırıqlar icra edilib.

Əməliyyat təliminin niyyətinə uyğun olaraq əməliyyatlarda atəş dəstəyi həyata keçirəcək bölmələr təyin edilmiş məntəqələrə çıxarıldıqdan sonra növbəti mərhələyə hazırlıqla bağlı tapşırıqlar icra edirlər.

* * *

Azərbaycan Ordusu miqyasında keçirilən əməliyyat təlimi çərçivəsində Hərbi Dəniz Qüvvələri (HDQ) qarşıya qoyulan tapşırıqları icra edir.

Plana uyğun olaraq HDQ-nin idarəetmə qrupuna müdaxilələr əsasında daxil olan məlumatlar xəritə üzərinə işlənilir.

Təlimə cəlb olunan gəmi taktiki qrupları Xəzər dənizinin əməliyyat zonasında tapşırıqları dəqiq və effektiv icra edirlər.

* * *

Müxtəlif qoşun növlərinin cəlb olunduğu əməliyyat təlimi davam edir.

Təlimin məqsədinə uyğun olaraq Raket və Artilleriya Qoşunlarının bölmələri daimi dislokasiya məntəqələrini "Həyəcan" siqnalı ilə tərk edərək marş icra etmə, cəmləşmə rayonlarına çıxma və digər tapşırıqları yerinə yetiriblər.

# Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində treninq keçirilib

*Silahlı Qüvvələrin hərbi təhsil sisteminin inkişafına yardım üzrə NATO-Azərbaycan Birgə Fəaliyyət Planına uyğun olaraq, Müdafiə Təhsilinin genişləndirilməsi Proqramı çərçivəsində Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində professor və müəllim heyəti ilə treninq keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Ali Hərbi Məktəbdə xarici dillər üzrə ixtisaslaşan mütəxəssislər üçün təşkil olunan "Peşəkar hərbi təhsil üzrə aktiv öyrənmə" adlı treninqdə NATO-nun müvafiq mərkəzlərində tətbiq edilən müasir tədris sistemi haqqında məlumat verilib, qarşılıqlı fikir mübadiləsi aparılıb.



# Şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə mənzillər təqdim edilib

*Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Gəncə şəhərində yeni yaşayış binasından alınmış 12, Şirvan şəhərində isə 20 mənzil şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə təqdim edilib. Gəncə şəhərində mənzillərin təqdim edilməsi tədbirində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatının rəhbəri Hidayət Abdullayev, Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Şirvan şəhərində isə nazirliyin aparat rəhbərinin müavini Niyazi Rəhimov, Şəhər İcra Hakimiyyətinin başçısının müavini Məharət Mustafayev iştirak ediblər.*

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, ictimai birliklərin və yerli ictimaiyyətin nümayəndələrinin iştirak etdiyi tədbirlərdə bildirilib ki, ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə şəhid olanların ailələrinin və həmin döyüşlərdə sağlamlıqlarını itirərək əlil olan şəxslərin mənzillə təminatı ölkəmizdə aparılan sosial siyasətin əsas istiqamətlərindən biridir. Prezident İlham Əliyevin şəhid ailələrinə və müharibə əlillərinə xüsusi qayğısı nəticəsində bu tədbirlər ildən-ilə gücləndirilir. Yeni yaşayış binasından mənzillər alınaraq, həmçinin fərdi yaşayış evləri inşa etdirilərək həmin kateqoriyalardan olan vətəndaşlara təqdim edilir.

2018-ci ildə Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə nəzərdə tutulduğundan 3 dəfə çox olmaqla 626 mənzil təqdim edilibsə, bu il 934 mənzil və fərdi evin şəhid ailələri və müharibə əlillərinə verilməsi planlaşdırılıb. Bu ilin ötən dövründə 246 mənzil artıq verilib. Bununla da indiyədək nazirlik tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə 6900 mənzil təqdim edilib. Həmçinin müharibə əlillərinə ötən il 265 avtomobil verilib, bu il isə nəzərdə tutulduğundan 3.2 dəfə çox olmaqla 600-ə yaxın avtomobil verilməsi planlaşdırılıb. Onlara 427 avtomobil verilərək indiyədək həmin təbəqədən olanlara təqdim edilən avtomobillərin sayı 6400-ə çatıb.

Əməkhaqqı, pensiya, müavinət və təqaüdlərin artırılması sahəsində də bu il inqilabi addımlar atıldığı diqqətə çatdırılıb. Bu il reallaşan iki sosial paket nəticəsində minimum əməkhaqqının 2 dəfəyə yaxın, minimum pensiyanın 72.4 faiz, sosial müavinət və təqaüdlərin orta hesabla 100 faiz artırıldığı qeyd edilib. Şəhid ailələri və müharibə əlillərinin digər istiqamətlərdə də dövlət qayğısı ilə əhatə olunduqları vurğulanıb.

Yeni mənzillə təmin edilən vətəndaşlar şəhid ailələrinin və Qarabağ müharibəsi əlillərinin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasına, ümumən onların hərtərəfli təminatına göstərdiyi yüksək diqqət və qayğıya görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə ediblər.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Monitorinq insidentsiz başa çatıb

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, noyabrın 13-də Tərtər rayonu ərazisində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində keçirilən monitorinq insidentsiz başa çatıb.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Saymon Tiller keçiriblər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik, onun səhra köməkçiləri Oqnyen Yoviç və Gennadi Petrika aparıblar.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***15 noyabr 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan, snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 20 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Dovex kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonunun Cil kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Kürdlər kəndləri yaxınlığında, həmçinin Xocavənd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Əməliyyat təlimi çərçivəsində Naxçıvan Qarnizonu qoşunlarının fəaliyyətləri davam edir

*Azərbaycan Ordusu miqyasında keçirilən əməliyyat təlimi çərçivəsində Naxçıvan Qarnizonu qoşunlarının birləşmə və hissələri həyəcan siqnalı ilə qaldırılaraq döyüşə hazırolma dərəcəsinə gətirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, üç mərhələdə keçirilən təlimdə birinci eşelon bölmələrinin şərti düşmənin qəfil hücumlarının dəf edilməsi üzrə fəaliyyətləri, birlik, birləşmə və hissələrin hərbi idarəetmə orqanlarının ərazidə açılması və idarəetməni öz üzərinə götürməsi, səfərbərlik ehtiyatlarından döyüş hazırlığını təyin edən mütəxəssislərin və texnikaların qismən qəbulunun təşkili, ümumqoşun, tank, desant və diversiya əleyhinə ehtiyatların döyüş atışlı taktiki təlimdə praktiki fəaliyyətləri məşq etdirilir.



* * *

Təlim çərçivəsində qoşunların səfərbərlik ehtiyatları ilə komplektləşdirilməsi üçün şəxsi heyət və texnikanın qəbulu məntəqələri tam həcmdə açılaraq praktiki fəaliyyət göstərib. Məntəqələrdə şəxsi heyət silah və maddi vəsaitlərlə təmin edilərək müxtəlif nəqliyyat vasitələri ilə birləşmə və hissələrin cəmləşmə rayonlarına çıxarılıb.

Hərbi qərar qəbuletmə prosesinə uyğun olaraq əsas komanda məntəqəsində keçirilən brifinqdə Müdafiə nazirinin müavini - Əlahiddə Ümumqoşun Ordu komandanı idarə və qoşun növü rəislərinin məruzələrini dinləyib, qərarın qəbulu üçün lazımi hesabatların aparılmasına və əlavə tədbirlərin görülməsinə göstəriş verib.

# Erməni diplomatlar tərəfindən Azərbaycana qarşı yönəlmiş çirkin əməllərin qarşısı alınır

Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi xarici siyasətin əsas istiqamətlərindən biri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinə yönəlib. Bu gün Azərbaycan diplomatiyasının üzərinə olduqca böyük bir məsuliyyət qoyulub və hər bir Azərbaycan diplomatı bu məsuliyyəti dərk edir, qarşıya qoyulan vəzifələrin öhdəsindən gəlmək üçün bütün təcrübəsini və savadını səfərbər edir.

AZƏRTAC xəbər verir ki, bu fikri jurnalistlərə açıqlamasında Azərbaycanın Ukraynadakı səfiri Azər Xudiyev bildirib.

Səfir qeyd edib ki, bu gün Azərbaycan diplomatiyası müasir dünyamızın çağırış və təhdidlərinə cavab verir və beynəlxalq aləmdə dövlətimizin müsbət imicinin formalaşdırılması istiqamətində bütün səyləri əsirgəmir və eləcə də müstəqil dövlətimizə yönələn mümkün geosiyasi risklərin yaranmasına imkan vermir.

"Təəssüflər olsun ki, 27 ildən artıqdır Azərbaycanın tarixi torpaqları, o cümlədən Dağlıq Qarabağ ərazisi erməni işğalı altındadır. Ona görə də Azərbaycan diplomatiyasının əsas fəaliyyət istiqaməti bu münaqişənin həllinə yönəlib. Erməni diplomatları tərəfindən xarici dövlətlərdə ölkəmizə qarşı yönəlmiş çirkin əməllərin, təxribatların qarşısının alınması üçün tərəfimizdən daim işlər aparılır. Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə çatdırılması diplomatiyamızın qarşısında duran ən mühüm vəzifələrdəndir", - deyə səfir əlavə edib.

A.Xudiyev iqtisadi diplomatiyaya da çox böyük önəm verildiyini söyləyərək bildirib ki, Azərbaycana xarici sərmayələrin cəlb edilməsi üçün diplomatik missiyalarımız tərəfindən bütün lazımi işlər aparılır. Səfir onu da qeyd edib ki, Ukraynada vətəninə və dövlətinə ürəkdən bağlı olan bir çox vətənpərvər iş adamı mövcuddur. Burada Vətənini, dövlətini sevən azərbaycanlılar çoxdur. Onlar fərdi şəkildə Azərbaycanın təbliği istiqamətində səfirliyimiz tərəfindən işlənib hazırlanan layihələrin həyata keçirilməsində bizə daim dəstək olurlar.

# UNESKO-nun Baş Konfransında Azərbaycan nümayəndə heyəti erməni yalanlarını ifşa edib

UNESKO-nun Baş Konfransının 40-cı sessiyasında ümumi siyasi debatlar zamanı çıxış edən Ermənistan təhsil və elm naziri Arayik Harutyunyan təxribata əl atıb. O, Dağlıq Qarabağ "xalqı"nın öz təhsil hüququndan istifadə edə bilməməsi və mədəni irs abidələrinin qorunması mövzusuna toxunaraq, Naxçıvanda "erməni qəbirlərinin dağıdılması" kimi yanlış fikirlər söyləyib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın UNESKO yanında daimi nümayəndəliyi cavab hüququndan istifadə edib. Müşavir Ayaz Qocayev nümayəndə heyətimizin bəyanatını həmin debatda səsləndirib.

Bəyanatda ölkəmizin ərazisinin 20 faizinin erməni qoşunları tərəfindən işğal olunduğu və bu işğalın uzun illərdir davam etdiyi bildirilib. Qeyd edilib ki, BMT Təhlükəsizlik Şurasının erməni qoşunlarının Azərbaycanın işğal altındakı torpaqlarından dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsinə baxmayaraq, Ermənistan torpaqlarımızı hələ də işğal altında saxlayır. Bir milyon azərbaycanlı doğma yurdundan didərgin düşərək qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

*Təlim*

# Sən güclü ordunun əsgərisən!

*Azərbaycan Ordusunda əsgər hazırlığı mükəmməl bir sistem üzərində qurulub, inkişaf etdirilir. Gənc əsgərlər tədris dövründə ixtisas hazırlığını təkmilləşdirir, hərbi vərdişlərini artırdıqdan sonra hərbi hissələrdə xidmətlərini davam etdirirlər.*



"N" hərbi hissəsində minaatan batareyanın praktiki məşğələsinin də şahidi olduq. Əsgərlərin ardıcıllıqla hərəkətləri yerinə yetirmələri bölmədə döyüş hazırlığının yüksək olmasının təsdiqidir. Dərs başa çatdıqdan sonra məşğələ rəhbəri zabit Elvin Eyvazov dərslərin və təlimlərin önəmindən danışdı, tabeliyindəki şəxsi heyətin yüksək döyüş hazırlığına malik olduğunu bildirdi. "Bölməmizdə öz işini bilən, müqəddəs amalı məsuliyyətlə yerinə yetirən əsgərlər xidmət edirlər. Düşmənlə aramızdakı münaqişə hələ bitməyib və müharibə torpaqlarımız işğaldan azad ediləndə bitəcək. Azərbaycan əsgəri bunu Ali Baş Komandanın döyüş əmriylə yerinə yetirəcək. Azərbaycan Ordusunun hərbi qulluqçusu olaraq əsas borcumuz təcrübələrimizi, hərbi vərdişləri əsgərlərimizə aşılamaqdır. Bunun üçün bölməmizin zabitləri şəxsi heyətin yüksək bilik və bacarıqlara yiyələnməsi üçün səylərini əsirgəmirlər. Bölməmiz mütəmadi olaraq təlimlərdə də iştirak edir, təşkil olunan təlimlər gənc əsgərlərimizin döyüş ruhuna müsbət təsir göstərir."

Zabit döyüş hazırlığının ayrılmaz tərkib hissələrindən olan fiziki hazırlığın da yüksək olmasının topçu ixtisasının əsas şərtlərindən biri olduğunu xüsusi vurğuladı: "Artilleriya yüksək fiziki güc tələb edən qoşun növüdür. Bunun üçün şəxsi heyətin fiziki hazırlığını da daim diqqət mərkəzində saxlayırıq".

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Elmir İbrahimov bölmənin təminat və təchizat baxımından heç bir çətinlik çəkmədiyini və bunun orduya göstərilən diqqətin təcəssümü olduğunu bildirdi: "Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, arsenalımıza müasir tələblərə cavab verən silahlar daxil edilir və istifadədə olan silah-sursatlar modernləşdirilir. Döyüş əmri veriləndə Azərbaycan Ordusu döyüşəcək, qələbə qazanacaq, torpaqlarımızı işğaldan azad edəcək. O gün uzaqda deyil. Müsahibim söhbət zamanı onu da bildirdi ki, dayılarından Fizuli Mehdixanov birinci Qarabağ müharibəsində, Murğuz Həsənov 2016-cı ilin Aprel döyüşlərində iştirak edib, əmisi Fariz İbrahimov Hərbi Hava Qüvvələrində xidmət edən təcrübəli pilotlarımızdandır.

Minaatan heyətin hesablayıcısı olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Tural Bayramovu komandir nizam-intizamlı və məsuliyyətli hərbi qulluqçulardan biri kimi təqdim etdi. Təcrübəli hesablayıcı olan Tural təyinatı hesablamaq olan cihazı yaxşı öyrəndiyini, praktikada tətbiq etməyi bacardığını dedi: "Azərbaycanımızda ənənələrin davamı kimi təcrübəli artilleriyaçılar yetişir. Orta məktəbdə oxuduğum vaxtlarda Səməd bəy Mehmandarov və Əlağa Şıxlinski haqqında çox eşitmişdim. Sovet dövründə xidmət edən topçu generallarımız azərbaycanlı adını şərəflə daşıyırdılar, onların ömrü ordu sıralarında xidmət edən hər bir hərbi qulluqçu üçün örnəkdir.

Əsgər Elçin Haqverdiyev Azərbaycan Texniki Universitetinin Energetika fakültəsini bitirib. Gənc əsgər düşmənlə üzbəüz mövqedə xidmət etməkdən qürur duyduğunu dedi: "Keçirilən dərsləri dərindən mənimsəyir, zabitlərimizin təcrübələrindən maksimum faydalanmağa çalışırıq. Müntəzəm keçirilən dərslər, döyüş atışlı təlimlər bizim döyüş vərdişlərimizi artırır. Bizə təhkim olunmuş minaatan barədə həm nəzəri, həm də praktiki biliklərimiz var. Biz hərb vərdişlərimizi daim artırır, öz üzərimizdə işləyirik."

Əsgərlərimiz Elmir Qasımov, Rəmzi İslamzadə və Teyyub Məmmədov şərəfli yolun yolçusu olmaqdan qürur duyduqlarını və Azərbaycanın üçrəngli bayrağını tezliklə işğal altında olan torpaqlarımızda dalğalandıracaqlarına inandıqlarını bildirdilər.

Bir daha əmin olduq ki, Azərbaycan əsgəri güclü ordunun əsgəri, Azərbaycan Ordusu güclü əsgərin ordusudur.

Əsgərlərə xitabən deyirəm: Sən güclü ordunun əsgərisən!

**Baş leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**N.PƏNAHOVUNDUR**




# Müstəqilliyimiz əbədidir

*Xalqımızın istiqlal mübarizəsinin əsas mərhələlərindən biri olan 17 Noyabr - Milli Dirçəliş Günü Azərbaycanın müstəqilliyinin bərpa edilməsində mühüm tarixi rol oynayıb.*

Azərbaycanda Sovetlər dönəmində də leqal şəkildə davam edən milli-azadlıq hərəkatı ideoloji, məfkurəvi kökləri ilə tarixin xeyli əvvəllərində səsləşir. Bu hərəkat Gülüstan və Türkmənçay müqavilələrinə görə ikiyə bölünmüş Azərbaycanın gələcəyinə yönəldilmiş hərəkat idi. Bu hərəkat xalqın müstəqillik, azadlıq istəyini gerçəkləşdirəsi hərəkat idi. Bu hərəkat milli ruhun oyanışının təsdiqi idi.

Milli-azadlıq hərəkatı 1918-ci ildə Azərbaycanın tarixinin axarını dəyişən Bəyannamə ilə - Azərbaycan Demokratik Cümhuriyyətinin yaradılması ilə nəticələndi. 1920-ci ildə Rus imperiyası Şərqdə ilk demokratik Cümhuriyyət olan ADR-i ilhaq etdi. Xalqın azadlıq, müstəqillik istəyi yenə milli-azadlıq hərəkatına gətirən ideyaların yaşarılığı ilə davam etdirildi. Neçə-neçə vətənpərvər ziyalı Sovetlərin ideoloji təqiblərinə məruz qalsa da, imperiyanın bu hərəkatı məhv etməyə gücü çatmadı, çata bilməzdi; xalqın azadlıq istəyi qarşısında tarixən heç bir güc, qüvvə, qurum, dövlət də olsa belə dayana bilməyib.

Ötən əsrin axırlarında Ermənistan Azərbaycana qarşı ərazi iddiası qaldırdı. Mərkəz - Moskva onun bu istəyinin yolverilməzliyini rəsmən bildirmədi. Belə bir münasibət Ermənistanı daha şəbəkəli iddialara həvəsləndirdi - sonralar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ kimi münaqişə başladı. Bu münaqişə xalqın azadlıq istəyini, milli-azadlıq hərəkatını daha da kükrətdi. O vaxtlar dərnəklər şəklində fəaliyyət göstərən qurumlar, qüvvələr birləşdi, hərəkatın "nüvəsinə" çevrildi. Xalq bu "nüvə" ətrafında sıx birləşdi. Bu birlik əsl xalq hərəkatı idi. 1988-ci il noyabrın 17-də Bakıda ilk mitinq başladı. Xalq sonralar azadlıq meydanı adlandırılacaq meydanda həm Ermənistanın iddialarına qarşı şüarlar səsləndirdi, həm də əsarəti sonlandırmaq şüarları.

Hərəkat milyonların iştirak etdiyi nəhəng mitinq kimi davam edirdi. Mitinqdə Azərbaycan Demokratik Cümhuriyyətinin Dövlət Bayrağı olmuş üçrəngli bayraq meydana gətirildi, bu, hərəkatın yönümünün nə olduğunun təsdiqi idi...

SSRİ imperiyasının zəncirləri Bakıda qırıldı. 20 Yanvar faciəsini törətsə də, imperiya bu hərəkatı dayandıra bilmədi. Bu, o qədər möhtəşəm hərəkat idi ki, onun təsiri digər respublikalara da keçmişdi, yəni, SSRİ-nin dağılması prosesi Azərbaycanda milli-azadlıq hərəkatı ilə bağlı olub...

1988-ci ildə xalq hərəkatının alovlandığı bir vaxtda Azərbaycana rəhbərlik edən siyasi qüvvələr isə mövcud vəziyyəti qiymətləndirə bilmədilər. Xalqın maraqlarından daha çox imperiyanın maraqlarını düşünən bu adamların siyasi səbatsızlığından 20 Yanvar faciəsi baş verdi. Bir-birini əvəzləyən hakimiyyətlər xalqın dirçəlişini mütərəqqi səmtə yönəltmək iqtidarında deyildilər. Həmin o ağır məqamlarda yenə də ulu öndər Heydər Əliyev xalqın istiqlal ruhunu ölməyə qoymadı.

Milli Dirçəliş Gününün başlanğıcı 17 noyabrdır. Böyük tarixi şəxsiyyət Heydər Əliyevin Moskvada Azərbaycanın daimi nümayəndəliyi qarşısında çıxışını xalq azadlıq istəyinə öndər xeyirduası bildi...

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi. Muxtar respublikanın adından "Sovet" və "Sosialist" sözləri çıxarıldı. İmperiyanın hələ tarix səhnəsindən silinmədiyi bir dövrdə Naxçıvanın adından "Sovet" və "Sosialist" sözlərinin çıxarılması müstəqilliyimizin qazanılması yolunda çox böyük tarixi addım idi. Bununla Ümummilli Liderimiz milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük addım atdı.

Bununla Ümummilli Liderimiz milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük addım atdı. Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcı qoyuldu. Millət öz arzusuna çatdı - 1988-ci il noyabrın 17-dən başlayan meydan hərəkatı azad Azərbaycanın təməlini qoydu. Azərbaycan yenidən öz müstəqilliyinə qovuşdu. 17 noyabr isə xalqın milli-azadlıq hərəkatının başlanğıc günü - Milli Dirçəliş Günü kimi qeyd olunmağa başladı.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# "İctimai-siyasi hazırlıq dərslərində hərbi biliklərimizi və dünyagörüşümüzü artırırıq"

Cəbhə xəttində yerləşən "N" hərbi hissəsində bölmələrin birində yüksək tərtibatla hazırlanmış və müasir avadanlıqlarla təmin olunmuş sinif otağı var. Burada Azərbaycan Ordusunun inkişaf tarixinin mərhələlərini, ulu öndər Heydər Əliyev və Ali Baş Komandan İlham Əliyevin əsgərlərlə görüşlərini, Ermənistanın Azərbaycana qarşı elan etmədən apardığı müharibəni, Hərbi andı və Dövlət himnini əks etdirən maraqlı eksponatlar əsgərlərin mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun artırılmasında, vətənpərvərlik hissinin aşılanmasında mühüm rol oynayır.



Şəxsi heyət sinif otağında ictimai-siyasi hazırlıq məşğələsinə toplaşıb. Dərsi keçən zabit Hümbət Feyziyev dedi ki, şəxsi heyətə ictimai-siyasi hazırlıq dərsləri vaxtlı-vaxtında keçirilir. "Ordunun gücü döyüş hazırlığı ilə mənəvi-psixoloji hazırlığın vəhdətidir. Bu baxımdan biz şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi istiqamətində Müdafiə nazirinin təsdiq etdiyi plana müvafiq tapşırıqları yerinə yetirir, əsgərlərə milli-mənəvi dəyərlərimizə daha sıx bağlılıq aşılayırıq. Bu məqsədlə görülən vacib işlərdən biri də ictimai-siyasi hazırlıq dərsləridir. Şəxsi heyətin milli-mənəvi dəyərlərə sadiq, möhkəm nizam-intizam, qorxmazlıq, düşmənə nifrət, komandirlərinə inam kimi müsbət keyfiyyətlərə malik olmasında ictimai-siyasi hazırlıq dərslərinin önəmi böyükdür".

Zabit ictimai-siyasi hazırlıq məşğələlərinin səmərəli təşkilinin rəhbərlik tərəfindən daim diqqətdə saxlanıldığını, il ərzində dərslərin plan üzrə təsdiq edilmiş mövzularda təşkil olunduğunu bildirərək sözünə davam etdi:

- Günün nizam qaydasına uyğun olaraq keçirilən ictimai-siyasi hazırlıq dərslərində tariximizdən, ordumuzun yaranması və inkişaf mərhələlərindən, hərbi nizamnamələrdən, vətənpərvərlikdən, qəhrəmanlıq nümunələrindən və digər hərbi vətənpərvərlik mövzularında keçirilən dərslər əsgərlərin həm döyüş ruhuna, həm də mənəvi-psixoloji hazırlığına müsbət təsir edir, onları mənəvi dəyərlərə sədaqətli, Vətən sevgisinin, düşmənə nifrət hissinin nə olduğunu dərk edən, qorxmaz və cəsur əsgərlər kimi formalaşdırır.

Komandirlərini böyük maraqla dinləyən əsgərlərə dərsdən sonra mövzu ilə bağlı bir neçə sual ünvanladım. Əsgər Xəzər Alışov suallara səlis və dəqiq cavablar verdi: "Hərbi xidmət bizə bir çox üstün keyfiyyətlər aşılayır. Komandirlərimizdən döyüş hazırlığı, silahlar haqqında biliklər öyrənirik. Həmçinin ictimai-siyasi hazırlıq dərslərində hərbi biliklərimizi, dünyagörüşümüzü artırırıq. Digər məşğələlər kimi, bu dərsdə də həvəslə iştirak edir, qrup rəhbərimizin danışdıqlarını diqqətlə dinləyir, lazımi qeydlər aparırıq. Hər dərs fərqli mövzulardan yeni-yeni məlumatlar əldə edirik".

Əsgər Pərviz Əhmədov əsgərin vəzifə borcunu dəqiqliklə və düzgün ardıcıllıqla danışdı, bölük növbətçisinin vəzifə borclarını da tam şəkildə dedi: "Hər dəfə məşğələyə başlamazdan əvvəl qrup rəhbərimiz vəzifə borclarımızı soruşur. Dərsin sonunda keçirilən mövzu haqqında sual-cavab edərək qiymətləndirmə aparır. Hər birimiz yaxşı qiymət almağa can atırıq. Keçirilən bütün dərsləri yaxşı mənimsəməyə səy göstəririk. Əsgəri xidmətin müqəddəsliyini, vacibliyini və məsuliyyətini yaxşı dərk edir, vəzifələrimizin öhdəsindən layiqincə gəlməyə çalışırıq. Asudə vaxtlarımızda da əsasən sinif otağında və ideoloji otaqda olur, "Azərbaycan Ordusu" qəzetində dərc olunan məqalələri, bədii kitabları oxuyur, dama, şahmat oynayırıq".

Cavabları həm də əsgərlərin dərsə olan marağının, zabitin metodik bacarığının göstəricisi bildim.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Gənc zabitlərimiz*

# Vəzifələrin öhdəsindən bacarıqla gəlirlər




*Gündən-günə gözəlləşən kənd və qəsəbələrimizi ötüb arxada qoyandan sonra qarşımızda geniş və gözəl bir panoram açılır. Bu yerlərin gözəlliyi göz oxşayır. Yolun kənarındakı ərazi haqqında məlumatverici lövhədə yazılanlar diqqətimizi özünə çəkir. Lövhədə qarşıdakı yaşayış məntəqəsinin adı ilə yanaşı, bu yolun Şuşaya getdiyi göstərilirdi. Təbiidir ki, uğurla başlanacaq döyüş yollarımız sonda Şuşada tamamlanmalıdır. O gözəl yerlərimizin zirvələri də üçrəngli bayraqlarımız üçün qəribsəyib. Lövhənin yanından xoş hisslərlə keçib qəhrəman Azərbaycan əsgərinin mövqelərinə doğru gedirik.*

Avtomobilimiz səliqə-sahmanlı geniş həyətdə dövrə vurub dayandı. İlk olaraq leytenant Ramil Siraclı ilə görüşüb tanış olduq. Öyrəndik ki, o, neçə ildir ki, ön xətdədir və bununla fəxr etdiyini vurğuladı. Gənc zabit dedi ki, mən torpağa, yurda bağlı bir hərbçiyəm. "Bu peşəni də öz arzumla seçmişəm. Çünki hələ kiçik yaşlarımdan hərbçi olmaq istəyirdim. Televiziyada hərbi yönümlü verilişləri və filmləri seyr etdikcə bu sahə məni ahənruba kimi özünə çəkirdi. Hərbçi olmaq, ordu sıralarında xidmət etmək, yurdumuzun keşiyində dayanmaq üçün hərbçi peşəsini seçdim. Arzumu reallaşdırmaq üçün C.Naxçıvanski adına Hərbi Liseyə üz tutdum. Bu peşə mənim üçün çox şərəfli və müqəddəsdir. Hazırlığım yüksək olduğuna görə imtahanda uğur qazanıb istəyimə çatdım. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbini bitirib ön xətdə xidmətə başladım. Yurdumuzun səngərində dayanmaqdan, torpaqlarımızı erməni işğalçılarından qorumaqdan qürur duyuram. Vətənimizin hər qarışı bizim üçün müqəddəs, əziz və doğmadır. Əsgərlərimizin döyüş ovqatı, mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. Onlar həmişə mövqelərində ayıq-sayıq dayanırlar. Zabit kimi əsgərlərimlə fəxr edirəm. İnanıram ki, onlar istənilən an erməni qəsbkarlarını məhv etməyə qadirdirlər. Əsgərlər bilirlər ki, bu gün xalq torpaqlarımızı qorumağı onlara tapşırıb. Əminlik hissi ilə deyə bilərəm ki, şəxsi heyət bu tapşırığın öhdəsindən bacarıqla gəlir."

Bacarıqlı, peşəkar və daim torpaqlarımızı işğaldan azad etmək arzusu ilə yaşayan gənc zabit Ramil Siraclı ilə sağollaşıb qarşıdakı mövqelərə tələsirik. İnanırıq ki, səngərlərdə torpaqlarımızın keşiyində dayanmağı özünün ən böyük iftixarı hesab edən cəsur, igid, məğrur zabit və əsgərlərimiz üzərlərinə düşən mühüm vəzifələrin öhdəsindən bacarıqla gələcəklər!

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** Hərbi xidmət əleyhinə olan cinayətlər. Hərbi qulluqçuların hüquqi məsuliyyəti.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə bu məşğələyə hazırlaşarkən Azərbaycan Respublikası Konstitusiyasının, hərbi qanunvericilik aktlarının, Hərbi andın və hərbi nizamnamələrin tələblərini diqqətlə öyrənmək və öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə bağlamaq tövsiyə olunur.*

**Suallar:**

**1. Azərbaycan Respublikasında vətəndaşların hüquqi məsuliyyəti.**

**2. Hərbi xidmət əleyhinə olan cinayətlər.**

**3. Hərbi qulluqçuların hüquqi məsuliyyəti.**

### *Azərbaycan Respublikasında vətəndaşların hüquqi məsuliyyəti*

Hər bir cəmiyyətin normal həyatı üçün müəyyən qaydaların mövcud olması və ictimai-sosial münasibətlərin nizama salınması zəruridir. Həmin nizamlayıcı qaydalara, cəmiyyətin həyat fəaliyyətinin nizamlanmasına onun üzvlərinin davranışını müəyyən edən hüquqi normaların köməyi ilə nail olunur. Ancaq ictimai-sosial münasibətlərə hüquqi çərçivədə təsir göstərən digər amillər də vardır ki, bunlar da əxlaqi və dini normalar, adət və ənənələrdir.

Hüquqi məsuliyyət dedikdə Azərbaycan Respublikası Konstitusiyasının, qanunlarının, qüvvədə olan hüquqi sənəd və aktların tələblərinin icrasına dövlətin məcburetmə formasının verilməsi başa düşülür.

Müasir Azərbaycan dövlətçiliyinin banisi ulu öndər Heydər Əliyev gənclərimizə Azərbaycan Respublikasının Konstitusiyasını öyrənməyi tövsiyə edərək demişdir: "Konstitusiyada hər bir vətəndaşın hüquqları və azadlıqları öz əksini tapıbdır, eyni zamanda, hər bir vətəndaşın vəzifələri öz əksini tapıbdır. Vəzifələr isə, şübhəsiz ki, hər bir vətəndaşın özünün üzərinə düşən borcdur, məsuliyyətdir".

Konstitusiyanın 24-cü maddəsinə əsasən, hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz, ayrılmaz hüquqları və azadlıqları vardır. Bu isə hər kəsin cəmiyyət və başqa şəxslər qarşısında məsuliyyətini, vəzifəsini əhatə edir.

Konstitusiyanın 72-ci maddəsinə görə, dövlət və cəmiyyət qarşısında hər bir şəxs onun hüquq və azadlıqlarından bilavasitə irəli gələn vəzifələr daşıyır. Hər bir şəxs Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına əməl etməli, başqa şəxslərin hüquq və azadlıqlarına hörmət bəsləməli, qanunla müəyyən edilmiş digər vəzifələri yerinə yetirməlidir. Qanunu bilməmək vətəndaşı məsuliyyətdən azad etmir.

Azərbaycan Respublikası Konstitusiyasının 80-ci maddəsinə əsasən, Konstitusiyanın və qanunların pozulması, o cümlədən Konstitusiyada və qanunlarda nəzərdə tutulan hüquqlardan sui-istifadə və ya vəzifələrin yerinə yetirilməməsi qanunla müəyyən edilən məsuliyyətə səbəb olur. Hər bir şəxs dərk etməlidir ki, hüquq pozuntusuna yol verdikdə onun dövlət qarşısında məsuliyyət vəzifəsi yaranır və belə hallarda dövlət öz məcburetmə formalarını tətbiq etməkdə haqlıdır. Hər bir demokratik cəmiyyətdə hüquqi məsuliyyətin geniş dərk edilməsinin sosial əhəmiyyəti böyükdür və belə bir cəmiyyətə malik olan ölkə hüquqi dövlət quruculuğu yolunda mühüm nailiyyətlər əldə etməyə qadirdir. Hüquqi məsuliyyətin iki məqsədi - ümumi və konkret məqsədi vardır. Ümumi məqsəd demokratik quruluşun şərtlərini hüquqi cəhətdən təmin etməkdən ibarətdir. Hüquqi məsuliyyətin konkret məqsədi - demokratik hüquq qaydasını pozuntulardan mühafizə və müdafiə etməkdən, vətəndaşları hüquqi cəhətdən, hüquq pozanları isə yenidən tərbiyə etməkdir.

Cinayət törətmiş şəxslər qanun qarşısında bərabərdirlər və irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən və digər hallardan asılı olmayaraq cinayət məsuliyyətinə cəlb olunurlar.

### *Hərbi xidmət əleyhinə olan cinayətlər*

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin vəzifələri sülhü və bəşəriyyətin təhlükəsizliyini təmin etməkdən, insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyəti, iqtisadi fəaliyyəti, ictimai qaydanı və ictimai təhlükəsizliyi, ətraf mühiti, Azərbaycan Respublikasının Konstitusiya quruluşunu cinayətkar qəsdlərdən qorumaqdan, habelə cinayətlərin qarşısını almaqdan ibarətdir.

Bu vəzifələri həyata keçirmək üçün Azərbaycan Respublikasının Cinayət Məcəlləsi cinayət məsuliyyətinin əsaslarını və prinsiplərini, şəxsiyyət, cəmiyyət və dövlət üçün təhlükəli olduğuna görə cinayət sayılan əməllərin dairəsini və həmin cinayətlərin törədilməsinə görə tətbiq edilən cəzaların növlərini, həddini və həcmini, habelə digər cinayət-hüquqi xarakterli tədbirləri müəyyən edir.

Qanunda nəzərdə tutulmuş hər hansı əməlin (hərəkət və ya hərəkətsizliyin) əlamətləri formal cəhətdən mövcud olsa da, lakin az əhəmiyyətli olduğuna görə ictimai təhlükəli sayılmayan, yəni, şəxsiyyətə, cəmiyyətə və yaxud dövlətə zərər yetirməyən və ya zərər yetirmək təhlükəsi yaratmayan əməl (hərəkət və ya hərəkətsizlik) cinayət hesab edilmir.

Hərbi xidmət əleyhinə olan cinayətlər anlayışı Azərbaycan Respublikası CM-in 327-ci maddəsi ilə müəyyənləşdirilir. Həmin maddəyə görə çağırış və ya kontrakt üzrə Azərbaycan Respublikası Silahlı Qüvvələrində hərbi xidmət keçən hərbi qulluqçuların, qanunla müəyyən edilmiş qaydada hərbi qulluqçu statusuna malik olan başqa şəxslərin, habelə təlim və ya yoxlama toplanışlarına cəlb edilmiş hərbi vəzifəlilərin hərbi qulluğun müəyyən edilmiş qaydaları əleyhinə yönələn cinayətləri hərbi xidmət əleyhinə olan cinayətlər hesab olunur.

Hərbi xidmət əleyhinə olan cinayətlərin təsnifatı CM-in XII bölməsinin 35-ci fəslində verilmişdir. Bu fəslə 27 maddə daxildir.

Hərbi xidmət əleyhinə olan cinayətləri törədilmə xarakterlərinə görə aşağıdakı kimi qruplaşdırmaq olar:

- hərbi qulluqçular arasında tabelik münasibətləri olduqda və ya olmadıqda qarşılıqlı münasibətlərin nizamnamə qaydalarını pozma xarakterli cinayətlər (CM-in 328-332-ci maddələri);
- hərbi hissəni özbaşına tərketmə, fərarilik, öz sağlamlığına zərər vurmaq və s. üsulla hərbi xidmətdən yayınma məqsədilə törədilən cinayətlər (CM-in 333-335-ci maddələri);
- qarovul, daxili xidmət, patrul, döyüş növbəsi və digər xidmət qaydalarını pozmaqla törədilən cinayətlər (CM-in 336-340-cı maddələri);
- vəzifəli şəxslərin öz səlahiyyətlərindən sui-istifadəsi və ya vəzifə borclarına səhlənkar yanaşması, döyüş meydanını özbaşına tərk etmələri nəticəsində törədilən cinayətlər (CM-in 341-346-cı maddələri);
- hərbi əmlakı itirmə, zədələmə, xarab etmə və ya məhv etmə ilə nəticələnən cinayətlər (CM-in 347-349-cu maddələri);
- silahla və ya digər təhlükə törədən əşyalarla davranış, maşınların istismarı, uçuş və uçuşa hazırlıq, hərbi gəmiləri idarəetmə qaydalarını pozma nəticəsində törədilən cinayətlər (CM-in 350-353-cü maddələri).

Törətdiyi cinayət üçün intizam cəzası almış hərbi qulluqçu cinayət məsuliyyətindən azad edilmir və qüvvədə olan qanunvericiliyə müvafiq surətdə məsuliyyət daşıyır.

Törədilmiş hərbi cinayət üçün müvafiq qanuna görə inzibati təsir tədbiri görülməsi nəzərdə tutulubsa, bu cinayətin törədilmə şəraitini və nəticələrini nəzərə alaraq, cinayət materiallarının hərbi prokurora göndərilməsi və ya intizam cəzası verilməsi ilə kifayətlənmək barədə komandir (rəis) qərar qəbul edir. Bu halda həmin məsələnin həlli və intizam cəzasının müəyyənləşdirilməsi, qanuna görə materialı hərbi prokurora vermək səlahiyyəti komandirə (rəisə) aiddir.

### *Hərbi qulluqçuların hüquqi məsuliyyəti*

Azərbaycan Respublikasının Konstitusiyası Vətənin müdafiəsini, onun hər bir vətəndaşının müqəddəs borcu və qanunla müəyyən edilmiş qaydada hərbi xidmət keçməyi vətəndaşların əsas vəzifələrindən biri kimi müəyyənləşdirmişdir.

Azərbaycan Respublikasının Silahlı Qüvvələri sıralarına daxil olarkən hər bir vətəndaş Hərbi andı qəbul edir və andını pozarsa, Azərbaycan Respublikası qanunlarının tam ciddiyyəti üzrə məsuliyyət daşımağa hazır olduğunu elan edir.

Hərbi qulluqçu öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır və borcludur ki: Azərbaycanın mənafeyini qorusun; onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərsin; Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına və Hərbi anda müqəddəs və sarsılmaz surətdə riayət etsin; intizamlı, vicdanlı, doğruçu və cəsarətli olsun; hərbi borcunu yerinə yetirərkən bütün qüvvəsini və lazım gəldikdə canını belə əsirgəməsin; komandirlərə (rəislərə) sözsüz tabe olsun və döyüşdə onları müdafiə etsin; öz hissəsinin Döyüş Bayrağını göz bəbəyi kimi qorusun.

Hərbi qulluqçu hərbi nizamnamələrin tələblərini və öz vəzifələrini yaxşı bilməli və vicdanla yerinə yetirməli; hərbi biliklərini mütəzəm surətdə təkmilləşdirməli; ona tapşırılmış silahları, döyüş texnikasını və digər texnikanı mükəmməl bilməli, həmçinin hərbi əmlakı və xalq əmlakını qorumalı; ağlabatan təşəbbüslər göstərməli; hərbi xidmətin bütün çətinlik və məhrumiyyətlərinə mətinliklə dözməli; döyüşçü yoldaşlığına sadiq olmalı, öz yoldaşlarına sözü və işi ilə kömək etməli, onları nalayiq hərəkətlərdən çəkindirməli, həyatını əsirgəmədən təhlükədən xilas etməli; sayıq olmalı, dövlət sirrini ciddi surətdə saxlamalıdır.

Hərbi qulluqçuların hüquqi məsuliyyətinin hərbi xidmətdən irəli gələn xüsusiyyətləri Azərbaycan Respublikası Silahlı Qüvvələrinin fəaliyyətini tənzim edən qanunlarla, Hərbi and, hərbi nizamnamələr və digər hərbi normativ aktlarla (əmrlər, direktivlər, sərəncamlar və s.) müəyyən edilir. Həmin xüsusiyyətlərin ən mühümlərini nəzərdən keçirək:

- hüquq pozuntularının (hərbi xidmət əleyhinə olan cinayətlər, hərbi intizam pozuntuları) xüsusi dairəsi dövlət tərəfindən müəyyən edilir;
- komandirlər (rəislər) tabeliklərində olan hərbi qulluqçuları hüquqi məsuliyyətə cəlb etmək üçün xüsusi səlahiyyətlərə malikdirlər;
- komandirlərin (rəislərin) hərbi qulluqçulara tətbiq etdikləri hüquqi məsuliyyət tədbirlərinin icrasının xüsusi şərtləri müəyyən edilmişdir;
- yalnız hərbi qulluqçulara tətbiq edilməli olan xüsusi məsuliyyət tədbirləri müəyyən edilmişdir.

Bütün hərbi qulluqçular rütbələrindən və vəzifələrindən asılı olmayaraq qanun qarşısında bərabərdirlər və onlar:

- hərbi intizamın və ictimai asayişin pozulması ilə bağlı nalayiq hərəkətlərə, eləcə də əxlaq qaydalarına zidd hərəkətlərə görə - ictimai təsir tədbirlərinə;
- hərbi intizamı pozduqlarına görə - Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsində müəyyən edilmiş qaydada intizam məsuliyyətinə;
- inzibati xətalara görə - Azərbaycan Respublikasının inzibati qanunvericiliklə müəyyən edilmiş ümumi əsaslarla inzibati məsuliyyətə və ya Azərbaycan Respublikası Silahlı Qüvvələrinin İntizam Nizamnaməsində müəyyən edilmiş qaydada intizam məsuliyyətinə;
- mülki qanunvericiliklə nəzərdə tutulmuş öhdəliklərin yerinə yetirilməməsinə görə və ya hərbi xidmət vəzifələrini icra etmədikləri vaxt dövlətə və vətəndaşlara vurduqları ziyana görə - mülki-hüquqi məsuliyyətə;
- hərbi xidməti yerinə yetirərkən, dövlətə vurduqları maddi ziyana görə - "Hərbi qulluqçuların dövlətə vurduqları ziyana görə maddi məsuliyyəti haqqında" Əsasnaməyə müvafiq olaraq maddi məsuliyyətə;
- cinayət törətdiklərinə görə - cinayət məsuliyyətinə cəlb oluna bilərlər.

Hərbi qulluqçu ezamiyyətdə, məzuniyyətdə, tibb müəssisəsində müalicə zamanı və digər hallarda törətdiyi nalayiq hərəkətlərə görə böyük rəislərdən aldığı intizam cəzası barədə daimi xidmət yerinə qayıdan kimi özünün bilavasitə rəisinə məlumat verməlidir, əks təqdirdə o, bu iş üçün inzibati məsuliyyət daşıyır.

Azərbaycan Respublikasının Silahlı Qüvvələrində hərbi intizam hərbi qulluqçuların şüurluluğuna, vətənpərvərlik borclarını dərindən dərk etmələrinə və Vətənə sonsuz məhəbbət bəsləmələrinə əsaslanır. Lakin bunlar öz hərbi borcuna etinasız yanaşan hərbi qulluqçulara məcburiyyət tədbirlərinin tətbiqini istisna etmir.

Əgər tabelikdə olan tabe olmaqdan açıq-aşkar imtina edirsə, yaxud müqavimət göstərirsə, komandir (rəis) qayda-qanunu bərpa etmək üçün məcburiyyət tədbirlərindən istifadə etməyə və hətta təqsirkarı həbs edib, məhkəmə məsuliyyətinə cəlb etməyə borcludur. Bu zaman silahdan ancaq döyüş şəraitində istifadə etmək olar; sülh dövründə isə silah yalnız müstəsna hallarda - şərait təcili tədbirlər görməyi tələb etdikdə, yəni, tabe olmayanın hərəkətləri Vətənə xəyanətə, döyüş tapşırığının yerinə yetirilməməsinə yönəldikdə və ya komandirin (rəisin), digər hərbi qulluqçuların, ya da mülki şəxslərin həyatı üçün real təhlükə yarandıqda işlədilə bilər.

Hərbi hissələrdə şəxsi heyətin hüquqi tərbiyəsi məqsədi ilə hüquq hazırlığı keçirilir və Azərbaycan Respublikasının qanunları, hərbi qanunvericilik aktlarının tələbləri haqqında ətraflı məlumatlar verilir. Aparılan ciddi hüquqi-profilaktik tədbirlər nəticəsində cinayət və hadisələrin sayı qat-qat azalmışdır. Bütün bunlar isə ordunun döyüş qabiliyyətinin və döyüş hazırlığının yüksəldilməsi, hərbi hissələrin döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirməsi üçün ən vacib amillərdəndir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

Tibb xidməti

# Əsgərlərimizin sağlamlığı daim diqqət mərkəzindədir

*Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində tibb xidməti nümunəvi təşkil edilib. Həkimlər, digər tibb işçiləri hərbi hissənin şəxsi heyətinin sağlamlığını məsuliyyətlə diqqətdə saxlayır. Bu, onların xidmətinin başlıca qayəsidir. Tibb xidməti leytenantı Rəvan Hüseynov Hərbi Tibb fakültəsinin məzunudur. Söhbətləşəndə dedi ki, həkimlik sənətinin nə qədər ağır və şərəfli bir peşə olduğunu hamımız yaxşı bilirik. Həkimlik sənəti həm də çox məsuliyyətli sənətdir - insan həyatı sənə etibar edilir, gərək sən də bu etibarı layiqincə doğrulda biləsən.*

- Mən uşaqlıqdan həm hərbçi, həm də həkimlik sənətini sevmişəm. Çünki həkim insan həyatının keşiyindədi, hərbçi Vətənin. Hər iki müqəddəs peşənin sahibi olduğumla qürur duyur, fəxr edirəm. Yaxşı həkim olmağın əsas amillərindən biri təcrübədir. Universitetdə, akademiyada peşəkar müəllimlərimiz bizə nəzəri olaraq hərbi təbabətin incəliklərini öyrədiblər. Ancaq təcrübə də vacibdir. Təhsil aldığım müddətdə bir müəllimimiz deyərdi ki, həkim həkimliyi təcrübədə, xəstələrlə münasibətdə daha yaxşı öyrənir. Xəstəni dinləmək, onun xəstəliklərini araşdırmaq, dəqiq diaqnoz qoymaq həqiqətən çətindir. Etiraf edim ki, xəstələrimin xəstəliyini az qala mən də yaşayıram.



Leytenant Rəvan Hüseynov onu da vurğuladı ki, tibb məntəqəsinə müraciət edən xəstələrin hamısına xüsusi diqqət göstərilir. "Onlara hər cür xidmət göstərmək bizim borcumuzdur. Biz bu borcu layiqincə yerinə yetiririk. Müraciət edən xəstələrin hamısını dinləyir, onlara dəqiq diaqnoz qoyur, sonra müalicəyə başlayırıq. Əlimizdən gələn köməkliyi xəstələrə edirik. Məntəqəmizin müasir tibbi avadanlıqlarla təchiz edilməsi, müraciət edən xəstələri tez bir zamanda müalicə edib, xidməti yerlərinə göndərməyə köməklik edir".

Baş gizir Mayis Ağakərimov söhbət zamanı müraciət edən əsgərlərin ilkin müayinədən keçdiyini və qeydiyyata alındığını dedi. "Əsgər ehtiyac olduğu zaman ya məntəqədə saxlanılır, ya da ambulator müayinə edilərək, xidmətini davam etdirir. Həkimlik sənətinin müqəddəsliyini qorumaq bizim vətəndaşlıq borcumuzdur. Müalicə etdiklərinin həyatına, sağlamlığına cavabdehliyini dərk edirsən. Biz əlimizdən gələni edirik ki, Vətənimizin keşiyini çəkənlərin keşiyində layiqincə duraq.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Sahibə İsmayılova bildirdi ki, iki müqəddəs peşənin sahibi kimi qürurlanıram. "İşimiz təkcə əsgərləri müalicə etmək yox, həm də xəstəliklərin qarşısını əvvəlcədən almaqdan ibarətdir. Bunun üçün mütəmadi olaraq bölmələrdə profilaktik işlər aparırıq".

Əsgər Əyyub Əlizadə göstərilən qayğıdan razılığını bildirdi. "İki gündür burada müalicə alıram. Həkimlər bizə doğma münasibət bəsləyir, qayğıyla yanaşırlar. Özümü yaxşı hiss edirəm. Bu gün bölməyə qayıdacam".

Hərbi hissədə müşahidə olunan yüksək şərait, hər cür tibbi avadanlıqla təchiz olunmuş tibb məntəqəsi bir daha sübut edir ki, ordu quruculuğu sahəsində həyata keçirilən islahatlar səmərəsini verib...

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

Hərbi texnikalar, silahlar

# Yaylım atəşli T-300 "Qasırğa" reaktiv sistemi



1997-ci ildə Türkiyənin "Roketsan" şirkəti Çinin CPMIEC (Chine Precision Machinery Import and Export Company) şirkəti ilə birgə çin analoqu olan WS-1B (Veyşi-1) T-300 "Qasırğa" şifrəsi altında yaylım atəşli reaktiv sisteminin hazırlanmasına razılıq əldə ediblər. 2000-ci ildə Türkiyədə T-300 raketinin oxşarının ilk sınaq uçuşu həyata keçirilib. Artilleriya hissələrində istifadə edilən taktiki silahlanma sistemi - 300 mm-lik yaylım atəşli "Qasırğa" reaktiv sistemi düşmənin 40-100 kilometrlik məsafədə yerləşən açıq qruplu hədəflərini, canlı qüvvəsini, yüngül zirehli texnikalarını məhv etmək üçün nəzərdə tutulub. Bu sistem üçün mobil tipli baza sistemi qismində alman istehsallı, yüksək keçidliyə, 6x6 təkər formulalı, 10 ton yük qaldırmağa malik olan MAN avtomobili seçilib. Onun qülləsində pulemyot və ya 40 mm-lik avtomat-qumbaraatan quraşdırmaq olar.

Yaylım atəşli T-300 "Qasırğa" reaktiv sisteminin batareyasının tərkibinə komanda-qərargah maşını (atəşi idarəetmə), TR-300 raketlərini buraxmaq üçün 4 ədəd buraxıcı boru olmaqla, 6-7 ədəd buraxıcı qurğu və bu qədər də nəqliyyat-təchizat maşını da daxildir.



TR-300 raketi dörd ədəd stabilizatordan ibarətdir. Raketdə qatı qarışıqlı yanacaq sistemindən (polibutadiyen əsasında, NTRV) istifadə edilir. Bir buraxıcı qurğunun atəşə hazırlıq müddəti 20 dəqiqədən çox çəkmir.

302 mm-lik raketin hər birinin uzunluğu 4.7 metr, çəkisi isə təqribən 524 kiloqramdır. Raketin döyüş hissəsi özündə 150 kiloqramlıq qəlpə-fuqas hərəkətli kasetli döyüş sursatını təsvir edir. Onun da tərkibi 26000-ə qədər polad hissəciklərdən (şarik) ibarətdir. Onlar da müxtəlif hədəfləri, möhkəmlənmiş kommunikasiya obyektlərini və infrastrukturları, zirehli maşınları və s. məhv etməyə malikdir.

Bir buraxıcı qurğu ilə təchizatsız olaraq dörd raketlə tək-tək və yaylım atəşi açmaq olar. Taktiki-texniki xüsusiyyətinə gəldikdə isə buraxıcı qurğunun çəkisi 20 tondur (NURS-25 olmaqla). Uzunluğu 9.20 m, eni 2.50 m, hündürlüyü 3.10 metrdir. Tənzimləyicisi dörd dayaqlı, hidravlikdir. Buraxıcı boruların diametri 300 mm, uzunluğu 5 metr, buraxılma intervalı 6 saniyə ərzində yerinə yetirilir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə hərbi hissədə baş vermiş partlayış nəticəsində 17 nəfər xəsarət alıb



Türkiyənin Şanlıurfa şəhərində yerləşən hərbi hissənin silah-sursat saxlanılan bölümündə baş vermiş partlayış nəticəsində xəsarət alanların sayı 17 nəfərə çatıb.

Hadisə barədə Türkiyənin Milli Müdafiə Nazirliyi məlumat yayıb.

Bildirilib ki, baş verən partlayış nəticəsində xəsarət alan 17 nəfərdən biri adi vətəndaş, 16-sı isə hərbi qulluqçudur. Yaralılar ətrafdakı xəstəxanalara yerləşdiriliblər.

## ABŞ Suriyanın Ayn-əl-Ərəb şəhərindən qoşunlarını çıxarıb



Birləşmiş Ştatlar Suriyanın şimal-şərqində Türkiyə ilə sərhəddə yerləşən Ayn-əl-Ərəb (Kobani) şəhərindən qoşunlarını tam çıxarıb.

Bu barədə Al Arabiya telekanalı məlumat yayıb.

ABŞ Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin nümayəndəsi kontr-admiral Uilyam Bern ABŞ qoşunlarının böyük hissəsinin Kobani rayonunu tərk etdiyini bildirib. Oktyabr ayının ortalarında Pentaqon rəhbəri Mark Esper Türkiyənin regionda əməliyyata başlaması səbəbindən Suriyanın şimalından minə yaxın hərbçinin çıxarılması prosesinə başlandığını deyib. Oktyabrın 16-da ABŞ-ın başçılıq etdiyi beynəlxalq koalisiya qüvvələri Hələb şəhərindən 150 kilometr məsafədə yerləşən Kobani rayonundakı hərbi bazalarını tam ləğv edib, həmçinin şimal-şərqdəki Rakka və Tabku şəhərlərindən çıxıb.

## Kabildə partlayış nəticəsində azı yeddi nəfər həlak olub



Kabildə Əfqanıstan Daxili İşlər Nazirliyinin binası yaxınlığında minalanmış avtomobilin partladılması nəticəsində azı yeddi dinc sakin həlak olub, bir o qədər insan da yaralanıb.

Bu barədə nazirliyin mətbuat katibi Nasrat Rahimi bildirib. Yerli hakimiyyət orqanları həlak olanların sayının artacağından ehtiyatlanır.

Partlayış zamanı World Guard xarici mühafizə şirkətinə məxsus avtomobilə ziyan dəydiyi, şirkətin dörd əməkdaşının yaralandığı bildirilir. Zərərçəkənlər arasında uşaqlar da var.

Hələlik, heç bir qruplaşma partlayışın məsuliyyətini üzərinə götürməyib.

## Əfqanıstan Prezidenti "Taliban"ın üç rəhbərinin azad olunması faktını təsdiqləyib



Əfqanıstan Prezidenti Əşrəf Qani hakimiyyətin 2016-cı ildə silahlılar tərəfindən qaçırılan iki xarici ölkə vətəndaşı, Kabildəki Amerika universitetinin amerikalı və avstraliyalı professorlarının azad olunması müqabilində "Taliban" hərəkatının üç rəhbərinin azadlığa buraxılması faktını təsdiqləyib.

Əşrəf Qəninin sözlərinə görə, bu qərar çox çətin, lakin vacib humanitar jestdir. Prezident, həmçinin hakimiyyətin bu addımı Əfqanıstanın beynəlxalq müttəfiqləri, əsasən də ABŞ-la məsləhətləşmələrdən sonra atdığını deyib.

Əldə olan məlumata görə, həbsxanadan "Hakkani şəbəkəsi" təşkilatının rəhbərləri Hacı Mali Xan, Hafiz Rəşid və "Taliban" hərəkatının rəhbərlərindən biri Siracuddin Hakkaninin doğma qardaşı Ənəs Hakkani azad edilib.

**AZƏRTAC-ın materialları əsasında**

## Azərbaycan torpağı

Bir muğam harayıdır,
Bayatı sədasıdır.
Dağları baş qaldırır,
Buluda çatasıdır.
Özü boyda xalıdır,
Gözəllik adasıdır,
Min nemət çələngidir
Hər tarlası, hər bağı,
Bərəkət süfrəsidir
Azərbaycan torpağı…
Çilçıraq salxımları
Kəhrəba düzümüdür,
Kəpəz igid ərlərin
Qranit dözümüdür.
Bu yer nağıldı,
yoxsa
Cənnətin özümüdür?
"Qara qızıl" nəhridir
Xəzərimin yatağı,
Əfsanədir, sehrdir
Azərbaycan torpağı…

## Torpaq haqqında nəğmə

Vətən bir budaqdır, yaşıl bir budaq,
Ümiddən asılı yarpağam mən də,
Ayağım altında çırpınır torpaq,
Yeriyən, düşünən torpağam mən də...

Ümmanlar qabarır,
Çaylar tökülür,
Adalar sularda boğulsun deyə.
Mənim göy Xəzərim geri çəkilir
Bir az torpağımız çox olsun deyə.

Dənizə az yağıb yağışlarımız,
Kimimiz güc olub biləyimizə.
Nəmli olmayıbdır baxışlarımız,
Yağmurlar düşübdür ürəyimizə.

Damlalar yaradıb axı ümmanı,
Qaralan buludlar yağmadı, ötdü.
Xəzərə düşəcək iki damlanı
Nənəm gözlərində apardı getdi.

Qəriblik qəlbimi sıxsa hardasa
Yalnız Vətən olar, Vətən, dərmanım.
İlhamın qanadı buludlardasa
Vətən torpağında köküm var mənim.

Adı itib-batar adlar içində,
Vətənsiz olana nə şöhrət, nə tac?
Qəriblər ölərlər yadlar içində,
Ölərlər bir ovuc torpağa möhtac...

Qərib həsrətinin yuxusu dərin,
Torpağı oyanmaz, daşı oyanmaz.
Yolu sərhədlərdə dayananların
Axar, gözlərinin yaşı dayanmaz.

Dəyər məftillərə, qırılar səsi,
Gah bayatı deyər, gah ağı deyər.
Vətənsiz olana bu Yer kürəsi
Vətənin bir ovuc torpağı deyil.

Torpağın köksündə baba ocağı,
Torpaqda buğlanan istini duyun.
Çörəktək öpürəm mən bu torpağı.
Öləndə gözümün üstünə qoyun!..

## Qar yağır Şəhidlər xiyabanına

Qış uyuda bilmir bu oyaq qəmi,
Donub başdaşıtək bir dərdli ana,
Didilmiş gəlinlik paltarı kimi
Qar yağır Şəhidlər xiyabanına.
Yorğun əsgərlərin yuxusu dərin,
Son sözü: "Bir içim sərin su verin!"
Örtür yarasını qar şəhidlərin,
Qar yağır Şəhidlər xiyabanına.
Burda ağlayan kim, burda susan kim?
Bizlərdən məhəbbət umub, küsən kim?
Dən düşür torpağın saçına sanki,
Qar yağır Şəhidlər xiyabanına.

*Könlüm şeir istəyir*

# Şeirlərində yaşayan şair

*Nüsrət Kəsəmənlinin şeirlərinin mövzusu da, bədii dəyəri də həmişə seçilib. Nüsrət Kəsəmənli sevərək yazan, yazaraq sevilən şair idi; onun yaradıcılığını oxucular da, ədəbi tənqid də həmişə diqqətlə izləyib. Onun "Getmək istəyirsən..." şeiri zamanında da, indi də gənclərin əzbərindədi. Nüsrət Kəsəmənlinin vətənpərvərlik şeirləri də düşündürücüdür. Onun "Xocalı" poeması Ermənistanın elan etmədən başladığı müharibəyə şair etirazıdır, şairin timsalında Azərbaycan poeziyasının etirazıdır.*

*Nüsrət Kəsəmənli şeirlərində yaşayır...*

**"Azərbaycan Ordusu"**

## Əsgər nəğməsi

Polad qanadlardan göylər kiçilər,
Bir güllə bir ömrü qoyar yanda,
Göylərdə itməyib təyyarəçilər;
Gecələr sayrışır paqonları da.

Hər qəlbdən qəhrəman bir Həzi baxır,
Burda hərarəti vardır qarın da,
Çıxıb Neptun kimi dənizdən Qafur
Saxlayır dənizi ovuclarında.

Vətəni qorumaq şərəfli, uca,
Torpaq bu şöhrəti qaldırar göyə,
Əsgərlər sürünər cəbhə boyunca -
Vətən ayaqlara düşməsin deyə.

Partlayar qəzəbi ağır topların,
Hardasa ömürlər ünvansız qalar,
İgid gərayların, matrosovların
Sonuncu qumbara ürəyi olar.

Pozulmaz poladdan yoğrulan cərgə,
Düşmən gücümüzdən sarsılar, çaşar,
Hər əsgər köksündə ürəklə birgə
Bir Vətən döyünər, bir Vətən yaşar.

## İsa bulağı

İl ilə calanır bu həsrət bitmir,
Qəmin aram olmur, kədərin itmir,
Elə hey axırsan, dərd axıb getmir,
Ağlama, ağlama, İsa bulağı.

Hanı, çal-çağırlı illərin hanı?
Tac kimi taxdığın güllərin hanı?
Şirin nəğmə deyən dillərin hanı?
Ağlama, ağlama, İsa bulağı.

Yerəmi düşübsən mərd sözü kimi?
Adın dilimizdə dərd sözü kimi,
Anasını gəzən bir quzu kimi
Ağlama, ağlama, İsa bulağı.

Üstünü quzğunlar alır, bilirəm,
Söyüdlər saçını yolur, bilirəm,
Suların od tutub, yanır, bilirəm,
Ağlama, ağlama, İsa bulağı.

Gördün başımıza gələn oyunu,
Bir gün alacaqdır hər kəs payını,
Hələlik zəhərə döndər suyunu
Ağlama, ağlama, İsa bulağı.

Bu dərdi qəlbimdə mən saxlayaram,
Qara saçlarımda dən saxlayaram,
Sənin əvəzinə mən ağlayaram,
Ağlama, ağlama, İsa bulağı.

Sən könül nəğməmsən, Şuşam baş tacım,
Səndə yuyulacaq hər ağrım, acım.
Suyunu buz kimi sərin tut, bacım,
Ağlama, ağlama, İsa bulağı...

## Qəhrəman şəhər

Dörd il açılmayıb burda könüllər,
Dörd il Bakıda da yaz olmayıbdır.
Qəhrəman şəhərlər çəkdiklərindən
Bakının çəkdiyi az olmayıbdır.

Oynamaq olmazdı çiçəklə, güllə,
Onu ana Vətən haraylayırdı.
Cəbhədə birinə atılan güllə
Arxada bir nəsli yaralayırdı.

Bakı qılınc kimi qalmadı qında,
Sıyrıldı kədərin, min qəmin üstə,
Tankın, təyyarənin motorlarında
Bakı yeriyirdi düşməni üstə.

Axırdı cəbhəyə qara seliylə,
Dilə də gətirməz əzabını o,
Atılan topların alov əliylə
Cəbhəyə yazmışdı öz adını o.

Bakı neçə-neçə cəbhə yarırdı;
Yolu irəliydi, yalnız irəli.
Bir əli torpaqdan neft çıxarırdı,
Bir əli cəbhədə yanırdı, bəli!

Yuxuda ən ağır top, tanklarıyla
Düşmən yer üzündən pozmuşdu onu.
Fürer qan qoxuyan dırnaqlarıyla
Hələ xəritədə cızmışdı onu.

Dönün o illərə, bir salın nəzər,
Barı o günləri düşünün, anın,
Bir neft dənizinə dönmüşdü Xəzər
Hələ də neftlidir suları onun.

Şöhrət istəməyir bu qəlbi dəniz
Onda ünvanı var hər gələn yazın.
Qəhrəman şəhərlər cərgəsinə siz
Yazın! Bakının da adını yazın!

## Getmək istəyirsən bəhanəsiz get

Getmək istəyirsən, bəhanəsiz get,
Oyatma mürgülü xatirələri.
Səsin həmin səsdir, baxışın ögey,
Gedirsən, səsin də yad olsun barı…
Sən dəniz qoynuna tullanmış çiçək,
Üstünə dalğalar atılacaqdır.
Saxta məhəbbətin saxta sənədtək
Nə vaxtsa üstündə tutulacaqdır.
Döşənib yollar tək ayaqlarına
Sənə yalvarımmı?… bu mümkün deyil!
Qoymaram qəlbim tək vüqarım sına
Alçalıb yaşamaq ömür-gün deyil.
Demirəm sən uca bir dağsan, ayil,
Demirəm qalıbdır əlacım sənə.
Nə səndə məhəbbət qara pul deyil,
Nə mən dilənçiyəm əl açım sənə…
Getmək istəyirsən…O yol, o da sən…
Bir cüt göz baxacaq arxanca sənin.
Getdinmi… Nə vaxtsa dönmək istəsən
Tikanlı yastığa dönəcək yerin.
Getmək istəyirsən… Nə danış, nə din!
Yox ol uzaqlar tək dumanda, çəndə…
Nəyimi sevmişdin? Deyə bilmədin,
İndisə yüz eyib görürsən məndə.
Getmək istəyirsən, bəhanəsiz get,
Oyatma mürgülü xatirələri.
Səsin həmin səsdir, baxışın ögey,
Gedirsən, səsin də yad olsun barı…

# İdman

## Azərbaycan-Uels oyununa hakim təyinatları açıqlanıb

Futbol üzrə "Avro 2020"nin seçmə mərhələsi çərçivəsində keçiriləcək Azərbaycan-Uels oyununa hakim təyinatları açıqlanıb.

Oyunu Almaniyadan olan hakimlər briqadası idarə edəcək. Görüşün baş hakimi Deniz Aytekin olacaq. Ona Eduard Beitinqer və Rafael Foltyn kömək edəcəklər.

Dördüncü hakim funksiyasını Kristian Dingert yerinə yetirəcək.

Azərbaycan-Uels oyunu noyabrın 16-da "Bakcell Arena"da keçiriləcək.

## Azərbaycan idmançıları ciu-citsu üzrə Tbilisidə keçirilən dünya çempionatında 20 medal qazanıblar



Azərbaycan idmançıları Tbilisidə keçirilən ciu-citsu üzrə dünya çempionatında 20 medal qazanıblar.

Çempionatda ölkəmizi Azərbaycan Ciu-citsu Federasiyasının kontakt ciu-citsu üzrə 21 üzvü təmsil edib. Azərbaycan komandası ilk dəfə iştirak etdiyi çempionatda 8 qızıl, 8 gümüş, 4 bürünc medal qazanıb. Yarışda Kənan Abbaszadə, Zaur Mirzəzadə, Jasmin Xəlilova, Anar Tağızadə, Bəxtiyar Məcidov, Ağahüseyn Atakişiyev, Rəsul Süleymanov və İnsaf Əliyev bütün rəqiblərini məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Əli Əliyev, Şəmsi Hüseynov, Nihat Hüseynli, Sadiq Əliyev, Kənan Abbaszadə, Ağahüseyn Atakişiyev, Həsən Hüseynzadə və Fərid Əhmədov isə finalda məğlub olaraq gümüş medalla kifayətləniblər. Digər üç idmançımız Fərid Əhmədov, Ayaz Abbasov hər biri bir bürünc, Mirzə Məmmədov isə həm kontakt ciu-citsu və nevaza növündə iki bürünc medal qazanıb.

## Taekvondoçularımız "Koreya səfiri" kuboku yarışında üç medala sahib olublar



Koreyanın Muju şəhərində taekvondo üzrə "Koreya səfiri" kuboku yarışı keçirilib. Hər il Koreyanın müxtəlif ölkələrdəki səfirlikləri taekvondo üzrə yarışlar təşkil edir. Bu il keçirilən yarışların qalibləri isə ilk dəfə dünya birinciliyi keçirilib.

Respublikamızda da artıq bir neçə ildir "Koreya səfiri" kuboku yarışları təşkil olunur. Builki turnirdən seçilən üç idmançımız ölkəmizi dünya birinciliyində təmsil edib və hər üçü mükafatçılar sırasında yer alıb. Koreya Respublikasının Azərbaycandakı səfirliyinin dəstəyi ilə yarışa qatılan Məmməd Abdullayevin yetirmələrindən Səyyad Dadaşov (51 kq) və Yaşar Məmmədli (63 kq) qızıl medal qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Digər idmançımız Riyad Şirəliyev (55 kq) isə dünya birinciliyinin bürünc medalına sahib olub.

## Azərbaycan karateçiləri Belçikada 2 medal qazanıblar



Azərbaycan karateçiləri Belçikanın Lyej şəhərində keçirilən beynəlxalq turnirdə 2 medal qazanıblar.

Təmsilçilərimiz Suada Kərimova (16-17 yaşlı gənclər, kumite 47 kq) və Neda Rezai (böyüklər, kata) bürünc mükafata sahib olublar. Beynəlxalq hakimlər Cahangir Babayev və Vüqar Kərimov dəvətə əsasən turniri idarə edən hakimlər arasında olublar.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Fuad CƏFƏROV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № **361**
Sifariş № **823**
Nüsxə **3950**